**Milli mətbuatımızın 150 illik yubileyi ərəfəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü hər yerdə böyük diqqətlə, çox maraqla izlənilib.**

Dövlətimizin başçısı forum iştirakçılarının suallarını cavablandırarkən milli mətbuatımızın inkişafı barədə deyib: "Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb. Mən bunu tam səmimiyyətlə deyirəm, sizə xoş söz demək üçün yox.

Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib".

Müsahibim **İsaq Əmənullayev** təcrübəli, peşəkar jurnalistdir. Ömrünün 83-cü ilini yaşayır. İmzası 1970-ci illərdən oxuculara tanışdır. İlk yazıları Lerik rayonunun "Bolluq uğrunda" (indiki "Lerik") qəzetində dərc olunub. Doğma yurdun qurub-yaradan zəhmət adamlarından, görkəmli ağsaqqallarından, tanınmış ziyalılarından, əsrarəngiz təbiətindən bəhs edən məqalələri həmişə diqqəti cəlb edib, oxucu sevgisi qazanıb.

Uşaqlıq illəri Lerik rayonunun Azərbaycan (indiki Günəşli) kəndində keçib. İbtidai məktəbi doğma kəndində, 7 illik məktəbi qonşu Noda kəndində bitirib. Əmisi, dövrünün mütərəqqi ziyalısı Şamil Baxşıyevin tövsiyəsi ilə 1962-ci ildə Bakı şəhərinə köçüb. N.Nərimanov rayonunda M.Qorki adına orta məktəbdə təhsilini davam etdirib.

İsaq Əmənullayev 1969-1974-cü illərdə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsində əyani təhsil alıb. Sevimli müəllimlərindən akademik Məmməd Cəfər Cəfərov, görkəmli yazıçı, ədəbiyyatşünas alim Mircəlal Paşayev, professor Şirməmməd Hüseynov və başqalarından dərs alıb, jurnalistikanın sirlərinə yaxından bələd olub. Təhsil dövründə elmi-tədqiqat işlərinə və ekoloji problemlərin təbliğinə xüsusi maraq göstərib. "Üzeyir Hacıbəyovun publisistikasında sənətkarlıq xüsusiyyətləri" mövzusunda yazdığı ilk elmi məqaləsi fakültə elmi şurasında bəyənilib və "Jurnalistika" jurnalında dərc olunub.

Universiteti yüksək qiymətlərlə bitirdiyinə, mətbuatda dərc etdirdiyi çoxsaylı yazılarına görə Azərbaycan KP MK-nın tövsiyəsi və universitet rektorluğunun təqdimatı əsasında təyinatı "Kommunist" qəzetinin ("Xalq qəzeti") redaksiyasına verilib. 1973-cü ildən həmin qəzetdə korrektor, katiblikdə müxbir, müxtəlif şöbələrdə müxbir, baş müxbir, xüsusi müxbirlər bölməsinin və məktublar şöbəsinin müdiri vəzifələrində çalışıb.

İstedadlı jurnalist Ümumdünya Səhiyyə Təşkilatının 1967-ci ilin noyabrında Praqada keçirilən simpoziumun materiallarına və 1969-cu ilin sentyabrında XIX Avropa Müşavirəsində irəli sürülən təkliflərə böyük maraq göstərərək bu mövzuda sanballı məqalələrlə mətbuatda çıxış edib.

# PEŞƏKAR SÖZ SƏRRAFI

İsaq müəllim 1970-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının ayrı-ayrı institutları ilə yaradıcılıq əlaqəsi saxlayıb. Görkəmli akademiklərdən - Həsən Əliyev, Firudin Köçərli, Mirəli Qaşqay, İbrahim Səfərov, Vasim Məmmədəliyev, alimlərdən Əjdər Ağayev, İsrafil Dəmirov, Seyidağa Onillahi, İzzət Rüstəmov, Şükür Həsənov, Məzahir Abbasov, Zahid Qaralov, Meşə Təsərrüfatı naziri Mehdi Mustafayev, bəstəkar Süleyman Ələsgərov, xalq yazıçısı Süleyman Rəhimov, görkəmli şairlərdən - Məmməd Araz, Tofiq Bayram, Nəriman Həsənzadə, Hüseyn Arif, general Sərdar İsrafilov və başqaları ilə görüşərək fikir mübadiləsi aparıb, mətbuatda elmi-publisistik məqalələri və müsahibələri dərc olunub.

Dünyanı cənginə almış ekoloji problemlər, tarixi abidələrin tədqiqi və qorunması yaradıcılığının ana xəttini təşkil edir. Bakının bədii tərtibatı, milli memarlıq görkəmi, yaşıllığı və ekoloji problemləri haqqında silsilə məqalələri mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib.

1990-cı illərin əvvəllərində cəbhə bölgəsinə ezam olunub. Qaynar xəttdən - Kəlbəcərdən, Ağdamdan silsilə yazılar hazırlayıb. Gənclərin hərbi-vətənpərvərlik və mənəvi tərbiyəsi mövzusunda qələmə aldığı silsilə publisistik yazılarına, eləcə də ekoloji problemləri müntəzəm işıqlandırdığına görə Respublika Veteranlar Şurası tərəfindən medalla təltif olunub. İstedadlı yazar "Kamil sənətkar" diplomu təqdim olunmaqla "Qızıl qələm", ölkəmizin tarixinə və beynəlxalq ekoloji problemlərə aid yazdığı tədqiqat xarakterli məqalələrinə görə "Həsən bəy Zərdabi" mükafatlarına, Respublika Ziyalılar Cəmiyyətinin, Azərbaycan Jurnalistlər Birliyinin diplomlarına, Azərbaycan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanına, çoxlu mukafat və təşəkkürnamələrə layiq görülüb. O, 2009-cu il dekabrın 14-15-də Küveyt şəhərində Ərəb dövlətlərinin 30-cu samitində ölkəmizi ləyaqətlə təmsil edib.

İsaq Əmənullayev 5 kitab və 1800-ə yaxın məqalənin müəllifidir. Ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Minilliyin zirvəsində" kitabının tərtibçisi və redaktorudur. Xalqımızın böyük oğlu, dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevlə sadə əmək adamı, lerikli fermer Xaniş Şahıyevin dostluğuna həsr olunmuş "Dağlardan güc alan dostluq" kitabının müəllifidir. Peşəkar jurnalistin qələmə aldığı "Dünya xali deyil", "Siyovdan iki nazir", "Təbiət insanlardan qayğı umur", "Bir ömrün işığında" adlı kitabları da geniş oxucu aiditoriyası qazanıb.



İsaq müəllim gözəl ailə başçısıdır. Dörd övladı, 8 nəvəsi vardır. Böyük oğlu Nuran Azərbaycan Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib, tanınmış nevroloq həkimdir. Qızı Günel kimya elmləri üzrə fəlsəfə doktoru, ixtiraçı, ortancıl oğlu Vüsal Azərbaycan Dövlət İqtisad Univeristetinin məzunu, iş adamı, kiçik oğlu Elçin isə ali təhsilli filoloqdur. Övladları ailənin ziyalılıq ənənələrini ləyaqətlə davam etdirirlər.

İstedadlı, peşəkar qələm sahibi İsaq Əmənullayev ömrünün yarım əsrini jurnalistikaya həsr edib. Təqaüddə olsa da, mətbuatı daim izləyir. Möhtərəm Prezidentimizin Xankəndi şəhərində keçirilən III Şuşa Qlobal Media Forumunda suallara cavabını böyük maraqla izlədiyini deyir. Azərbaycan mediasının inkişaf, yüksəliş yolu keçdiyini, beynəlxalq media aləmində önəmli mövqe tutduğunu, milli mətbuatımızın uğurları ilə daim sevindiyini və qürur hissi keçirdiyini bildirir.

Forumda cənab Prezident jurnalistlərin əməyini yüksək dəyərləndirərək deyib: "Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam. Çünki medianı nüfuzlu edən məhz əməkdaşlardır, sizin kimi insanlardır, sizin həmkarlarınızdır. Mən, sözün əsl mənasında, sevinirəm və sizə yeni uğurlar arzulayıram".

Nüfuzlu ağsaqqal, təcrübəli jurnalist İsaq Əmənullayev söhbət zamanı mətbuat işçilərinin sosial problemlərinin həllinə yüksək dəstəyinə və onların şərəfli əməyini yüksək qiymətləndirdiyinə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**